# TOVUZ

VƏTƏN, XEYİRXAHLIQ, ƏDALƏT UĞRUNDA!

Tovuz Rayon İcra Hakimiyyətinin orqanı

Qəzet 1929-cu ildən çıxır * № 09-10 (7591-7592) * 26 noyabr 2021-ci il * İctimai-siyasi qəzet * Qiyməti 50 qəpik


# “Azərbaycan son 18 ildə” mövzusunda tədbir kiçirilib

***YAP Tovuz Rayon Təşkilatının təşəbbüsü ilə Tovuz şəhər Nizami adına mədəniyyət mərkəzində “Azərbaycan son 18 ildə” mövzusunda konfrans keçirilib.***

Konfransda Tovuz rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov, YAP rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Məzahir Bayramov və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Konfransı giriş sözü ilə açan Məzahir Bayramov mövzu ilə bağlı ətraflı məruzə edib. O bildirib ki, yaxınlarda xalqımız Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsinin 30-cu ildönümünü qeyd etdi. Bu dövrdə ölkəmiz çox böyük inkişaf yolu keçib. Şərəfli tariximizin yarıdan çoxu ölkə Prezidenti cənab İlham Əliyevin adı ilə bağlıdır. 18 ildir ki, xalqımız cənab Prezidentin müəyyən etdiyi kursla uğurdan-uğura, qələbədən-qələbəyə





yollar keçərək gələcəyə doğru inamla irəlləyir. Bu illər Azərbaycan dövlətçiliyinin islahatlar və zəfər mərhələsidir.

Məruzəçi 2003-2021-ci illər ərzində ölkənin əldə etdiyi misilsiz nailiyyətləri faktlar və rəqəmlərlə diqqətə çatdırmışdır. O qeyd etmişdir ki, Azərbaycan Prezidentinin 2003-cü ildən başlayaraq bu günə qədər həyata keçirdiyi siyasət xalqımızın dövlətçilik tarixinin elə mühüm bir səhifəsini təşkil edir ki, bu gün də, yüz illər sonra da Azərbaycan xalqı bu tarixlə və onu yaradan lideri ilə daima fəxr edəcək. Ona görə ki, həyata keçirilən bu siyasət mümkün olmayanı mümkün etdi. Bizi nəticə etibarilə tarixi Zəfərə qovuşdurdu. Ulu öndərin arzusunda olduğu, lakin başa çatdıra bilmədiyi ən birinci vəzifə də elə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması idi. Biz indi ölkəmizin son 18 ildə keçdiyi inkişaf yolunun heç də tam olmayan bir mənzərəsinə nəzər salırıq.

Bu illər ərzində xalqımız bir çox başqa xalqların bəlkə də 100 illərlə keçə bilmədiyi yeniləmə, tərəqqi, özünüdərk, milli-psixoloji transformasiya yolu keçib. Bunun təməlində Ümummilli lider Heydər Əliyevin inkişaf strategiyasının, onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xəttinin dayandığını böyük minnətdarlıqla qeyd edirik. Bu kursu məharətlə davam etdirən Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, zəkası, siyasi iradəsi və uzaqgörənliyi xalqımızı dünən, bu gün olduğu kimi sabah da yeni-yeni zəfərlərə qovuşduracaqdır.

Tədbirdə çıxış edən Statistika İdarəsinin rəisi Niyazi Tağıyev, Təhsil Şöbəsinin müdiri Elmira Mürşüdlü, Mərkəzi Rayon Xəstəxanası Publik Hüquqi Şəxsin direktoru Paşa Muradov, Tovuz Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Emin Eyvazov son 18 ildə ölkədə ayrı-ayrı sahələrdə qazanılmış uğurlardan danışmış, son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatların gətirdiyi böyük faydalardan bəhs etmişlər.

Konfransın yekununda çıxış edən rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov bildirib ki, 18 il əvvəl Azərbaycan xalqı müdrik seçim edərək, Ulu Öndərimizin siyasi kursunun layiqli davamçısı İlham Əliyevə səs verdi. Ötən hər il xalqın öz seçimində yanılmadığını təsdiqləməkdədir. Yeni əsrin yeni lideri İlham Əliyev bu 18 ildə Azərbaycanı həm siyasi-iqtisadi, həm də hərbi cəhətdən qüdrətli, dünyada sözü keçən dövlətə çevirdi. Bu güc sayəsində Qarabağın 30 il davam edən işğalına 44 gündə son qoymaq mümkün oldu. Biz həqiqətən tarixi günlər yaşadıq və yaşayırıq. Qələbəyədək keçdiyimiz yol da qələbəmiz qədər şərəflidir. 44 günlük Vətən Müharibəsinədək keçdiyimiz sürətli inkişaf mərhələsi əslində torpaqlarımızın güc yolu ilə azad olunmasına hazırlıq dövrü idi.

Bu dövrdə Prezident İlham Əliyev iqtisadi, siyasi gücün hərbi güclə vəhdətini təmin etmək sahəsindəki misilsiz fəaliyyəti ilə özünün “güclü dövlət” konsepsiyasını reallaşdırırdı. Qüdrətli ordu, güclü iqtisadiyyat, beynəlxalq arenada önəmli mövqe, müstəqil xarici siyasət ölkəni qələbəyə doğru aparırdı. Peşəkar hərbi qulluqçuların hazırlanması, ordunun maddi-texniki təminatının gücləndirilməsi istiqamətində bütün lazımi addımlar atıldı.İllər ötdükcə Azərbaycanın artan iqtisadi imkanları fonunda ordumuzun arsenalı dünyanın ən qabaqcıl ölkələrinin istehsalı olan müasir hərbi texnikalar ilə daha da gücləndirildi. Müxtəlif ölkələrlə hərbi əməkdaşlığa dair sənədlər imzalandı, hərbi qulluqçularımızın xarici dövlətlərdə müxtəlif təcrübə proqramlarında, kurslarda iştirakı təmin edildi. Azərbaycanın dövlət büdcəsindən iri həcmli vəsaitlər məhz ordunun inkişafına, onun təchizatının yüksəlməsinə ayrıldı.

2003-cü ildən indiyə qədər Azərbaycanın hərbi büdcəsi 15 dəfədən çox artıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə son illər həyata keçirilən kompleks islahatlar nəticəsində Azərbaycan Ordusu dünyanın ən güclü ordusu reytinqində 50-ci yeri tutub.



18 ildir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bir rəhbər müdrikliyi, bir sərkərdə cəsarəti, bir lider məharəti ilə ölkəmizi qələbədən-qələbəyə yetirir, zəfərdən-zəfərə çatdırır. Qarşıda isə yeni-yeni zəfərlərin şəfəqləri görünməkdədir. Bu yolda Dövlətimizə, Prezidentimizə və Xalqımıza uğurlar diləyirik. Bu yolun yolçusu olmaq hər birimiz üçün çox böyük şərəfdir.

*“Tovuz”*



# Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin doğum günü münasibətilə ağacəkmə aksiyası keçirilib

Tovuz şəhərində Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin doğum günü münasibətilə ağacəkmə aksiyası keçirilib.

*"Tovuz"*





# İcra başçısı qazi Nəsirov Kənan Fizuli oğlunu evində ziyarət edib



***2020**-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istimatində atəşkəs rejiminin pozulması zamanı Tovuz rayonunun Hacıalılı kənd sakini Nəsirov Kənan Fizuli oğlu hərbi xidmətdə olarkən döyüş zamanı ağır yaralanmışdır. "YAŞAT" Fondu tərəfindən qazimiz müalicə üçün Türkiyəyə göndərilmişdi.*

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov, RİH başçısı aparatının məsul işçiləri, YAP Tovuz rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Məzahir Bayramov, Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid ailələri ictimai birliyinin Tovuz rayon filialının sədri Əli Əliyev, Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin Tovuz rayon şöbəsinin və Qarabağ Əlillərinə Qayğı İctimai Birliyinin Tovuz rayon filialının sədri Etibar Vəliyev bu günlərdə Türkiyədən müalicədən qayıdan Kənan Nəsirovu evində ziyarət ediblər.

Məmməd Məmmədov onun sağlamlıq durumu, ailə-məişət qayğıları ilə maraqlanıb. Qeyd olunub ki, Tovuz döyüşləri Azərbaycan tarixinin ən şanlı səhifələrindən olan Vətən müharibəsinə gedən yolda ən mühüm mərhələlərdən biridir. Bu döyüşlərdən sonra düşmənin növbəti təxribatının qarşısını almaq üçün Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində Ermənistan ordusunu darmadağın edərək torpaqlarımızı işğaldan azad etdi.

Qazi Kənan Nəsirov onun müalicəsinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlığını bildirmişdir.

*"Tovuz"*

## Şəhid anası bağça müdiri vəzifəsinə təyin edilib

Tovuz Rayon İcra Hakimiyyəti başçısı Məmməd Məmmədovun müvafiq əmrinə əsasən Vətən müharibəsi şəhidi İsmayılov Ceyhun İqbal oğlunun anası Aytəkin İsmayılova Aşağı Quşçu kənd 2 saylı körpələr evi-uşaq bağçasının müdiri vəzifəsinə təyin olunub.





# Şəhid ailələri və qazilər qəbul edilir

***Tovuz rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov bir qrup şəhid ailələrini və qaziləri qəbul edib.***

Qəbulda Vətən müharibəsi iştirakçıları və şəhid ailələri onları narahat edən problemlərdən danışıblar. Qazilərin və şəhid ailələri tərəfindən səsləndirdikləri müraciətlərin bir qismini yerində həll edilmiş, bir qisminin həlli üçün aidiyyəti üzrə tapşırıqlar verilmişdir.

Qeyd edək ki, rayonda şəhid ailələri və qazilərin qəbulu növbədən kənar davam etdirilir.

*"Tovuz"*

# Qaliblərlə görüş





***29 noyabr - 05 dekabr 2021-ci il tarixində Sumqayıt şəhərində yeniyetmələr, gənclər arasında Azərbaycan birinciliyi və böyüklər arasında Azərbaycan çempionatı keçirilib.***

Yarışda iştirak edən Tovuzlu taekvondoçulardan Nihat Həsənov, Kənan Əmiraslanov qızıl medal, Yusif Mərdanov, Kamil Hüseynov və Alidə Əliyeva gümüş medal qazanaraq rayonumuzu yüksək səviyyədə təmsil ediblər.

Tovuz rayon İcra Hakimiyyəti başçısı Məmməd Məmmədov Heydər Əliyev Mərkəzində qalib taekvondoçu idmançılar və məşqçi-müəllimlərlə görüşüb.

Tədbiri giriş sözü ilə açan rayon Gənclər və İdman İdarəsinin rəisi Sahib Ələsgərov keçirilən Azərbaycan birinciliyi və idmançılarımızın yarışda iştirakı barədə məlumat verib.

Daha sonra çıxış edən Məmməd Məmmədov Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin idmana olan diqqət və qayğısından, rayonda gənclərimizin bu və digər idman növlərinə getgedə artan marağından bəhs edərək, taekvondoçuları yarışda qazandıqları qələbə münasibətilə təbrik edib.

İcra başçısı idmançılara və məşqçi-müəllimlərə Tovuz Rayon İcra Hakimiyyətinin Fəxri Fərmanlarını və qiymətli hədiyyələrini təqdim edib.



*"Tovuz"*



# Tovuzda şəhid Amil Rüstəmovun xatirəsini əbədiləşdirən bulaq kompleksi istifadəyə verilib




***Tovuz rayon İcra Hakimiyyəti başçısının birinci müavini Rəşad Zeynalov, RİH başçısı aparatının məsul əməkdaşları, rayon ictimaiyyətinin nümayəndələri, şəhidin ailə üzvləri, şəhid ailələri, şəhid Rüstəmov Amil Bədrəddin oğlunun xatirəsinə inşa edilən bulaq kompleksinin açılışında iştirak ediblər.***

Tədbirdə əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, sonra Dövlət himni səsləndirilmişdir.

Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Rəşad Zeynalov çıxış edərək ötən il sentyabrın 27-də başlanan və Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində qazanılan Qələbənin tarixi əhəmiyyətindən danışıb.

Sonra şəhid Amil Rüstəmovun anası Şöhrət Rüstəmova, A.S.Puşkin adına Tovuz şəhər tam orta məktəbin müəllimi Sahibə Əliyeva, Bayramlı kənd İƏD üzrə nümayəndəsi Bəxtiyar Abdıyev, şəhid Elmar Şirinovun anası Amana Nəsirova, şəhid Röyal Aslanovun atası Elzar Aslanov çıxış edərək Qarabağ müharibəsi dövründə ordumuzun və xalqımızın göstərdiyi şücaətdən, qəhrəmanlıqlarından bəhs ediblər.

Xatirə bulağının açılışında məktəblilər Vətənə, ordumuza, şəhidlərimizə həsr olunan şeirlər səsləndiriblər.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə əsgər Rüstəmov Amil Bədrəddin oğlu "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

***"Tovuz"***

# ŞƏHİDLƏRİN XATİRƏSİ ƏBƏDİLƏŞDİRİLİR

## *Aşağı Quçuda Şəhidin xatirəsinə bulaq kopuleksi isdifadiyə verildi.*





***Tovuz rayonunun Aşağı Quşçu kəndində Birinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalan Vüqar İsmayıl oğlu Hüseynovun adını əbədiləşdirən bulaq kompleksinin açılışı olub.***

Açılış mərasimində rayon İcra Hakimiyyəti başçısı aparatının Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Oruc Məmmədov, Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid ailələri ictimai birliyinin Tovuz rayon filialının sədri Əli Əliyev, Azərbaycan Vətən Müharibəsi Veteranları ictimai birliyinin Tovuz rayon şöbəsinin sədri Etibar Vəliyev, rayon ictimaiyyətinin nümayəndələri, şəhid ailələri, qazilər və Aşağı Quşçu kənd sakinləri iştirak ediblər.

Tədbirin əvvəlində torpaqlarımızın bütövlüyü və müstəqilliyi uğrunda həlak olan şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Açılış mərasimində çıxış edənlər Əli Əliyev, Etibar Vəliyev, İ.Bayramov adına Aşağı Quşçu kənd ümumi orta məktəbinin direktor müavini Hafiz Namazov və Aşağı Quşçu kənd 2 saylı körpələr evi-uşaq bağçasının müdiri, şəhid anası Aytəkin İsmayılova Vətən müharibəsində Ordumuzun nümayiş etdirdiyi qəhrəmanlıqlardan bəhs etmiş, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün ərzində qazanılan Qələbənin tarixi əhəmiyyətindən danışmış, Vüqar Hüseynov və onun kimi şəhidlərimizin şücaətlərindən söz açmışlar. Çıxışlarda Vətən qarşısında öz borclarını ləyaqətlə yerinə yetirən şəhidlərimizin xatirəsinin xalqımız tərəfindən daim əziz tutulacağı vurğulanıb.

Sonda Aşağı Quşçu kənd məktəbinin şagirdləri Vətənə, ordumuza, şəhidlərimizə həsr olunan şeirlər səsləndiriblər.

Qeyd edək ki, şəhid Vüqar Hüseynov 29 avqust 1970-ci ildə anadan olub. 1977-1987-ci illərdə Aşağı Quşçu kənd tam orta məktəbində təhsil alıb. 1988-ci ildə hərbi xidmətə yollanan Vüqar Hüseynov 1993-cü ilin dekabr ayında Ağdam rayonunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub.

Allah Şəhidlərimizə rəhmət eləsin.

***"Tovuz"***





# Tovuzda şəhidlərin əziz xatirəsinə inşa edilən abidə kompleksinin açılışı olub

***Tovuz rayonunun Əsrik Cırdaxan kəndində şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksinin açılışı olub. Açılış mərasimində Tovuz Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Rəşad Zeynalov, rayon ictimaiyyətinin nümayəndələri, şəhid ailələrinin üzvləri, şəhidlərin döyüş yoldaşları, müharibə veteranları və kənd sakinləri iştirak ediblər.***

Tədbirdə əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, sonra Dövlət himni səsləndirilmişdir.

Sonra tədbir iştirakçıları abidə kompleksini ziyarət edib önünə gül dəstələri düzüblər. Vətən uğrunda canlarını qurban vermiş qəhrəmanların xatirəsi ehtiramla anılıb.



Rayon icra hakimiyyəti başçısının birinci müavini Rəşad Zeynalov çıxış edərək abidə kompleksinin tikintisində əməyi olanlara minnətdarlıq etmişdir. O, şəhid ailələrinə səbr, qazilərimizə şəfa diləmişdir. Qeyd olunmuşdur ki, Azərbaycan Ordusu müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etmişdir.

Tədbirdə Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid ailələri ictimai birliyinin Tovuz rayon filialının sədri Əli Əliyev, Tovuz RİH başçısının Əsrik Cırdaxan kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Telman Əmiraslanov, nümayəndənin müavini Sabir Quliyev, Əsrik Cırdaxan bələdiyyəsinin sədri Mübariz İbrahimov, Tovuz RİH başçısının Koxanəbi kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Sadiq Abulov, şəhid Murad Ələkbərovun atası Məzahir Ələkbərov və şəhid Qəzənfər İsmayılovun qardaşı Yolçu İsayev çıxış edərək şəhidlərimizə Allahdan rəhmət diləmiş, şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını bildirmişlər.

Sonda məktəblilər şəhidlərimizin xatirəsinə həsr olunan şeirlər söyləmişlər.

***"Tovuz"***

# Tovuzda şəhidlərin xatirəsinə inşa edilən abidə-bulaq kompleksinin açılışı olub





***Tovuz rayonunun Qovlar şəhərində şəhidlərin xatirəsinə inşa edilmiş abidə-bulaq kompleksinin açılış mərasimi keçirilib.***

Açılış mərasimində rayon icra hakimiyyətinin məsul əməkdaşları, şəhid ailələri, qazilər, ictimaiyyət nümayəndələri, Qovlar şəhər sakinləri iştirak ediblər.

İlk öncə şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə rayon İcra Hakimiyyətinin başçısının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Niftalı Qasımov çıxış edərək Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ötən ilin sentyabrın 27-də başlanan və Zəfərlə başa çatan Vətən müharibəsində qazanılan qələbənin tarixi əhəmiyyətindən danışıb. Daha sonra Vətən Müharibəsi iştirakçısı Emin İsmayılov, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid ailələri ictimai birliyinin Tovuz rayon filialının sədri Əli Əliyev, şəhid anası Ətlaz Feyzullayev çıxış edərək Qarabağ müharibəsi dövründə ordumuzun və xalqımızın göstərdiyi şücaətdən, qəhrəmanlıqlarından bəhs ediblər.

Abidə-bulaq kompleksinin açılışında məktəblilər Vətənə, ordumuza, şəhidlərimizə həsr olunan şeirlər səsləndiriblər.

***"Tovuz"***